**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2025.2.25**
**XƏDİCƏ HEYDƏROVA***

# ANTROPOMORFİZM VƏ HÜRUFİ TƏFƏKKÜR: ORTA ƏSR AZƏRBAYCAN TƏSƏVVÜF POEZİYASINDA BİR TƏHLİL

*Bu məqalədə orta əsr Azərbaycan təsəvvüf poeziyasında antropomorfizm anlayışının işlənmə səviyyəsi və yayılma coğrafiyası araşdırılır. Tədqiqatın əsas məqsədi İmadəddin Nəsimi yaradıcılığında rast gəlinən antropomorf leksik vahidlərin digər klassik sufi şairlərinin əsərlərində də müşahidə olunub-olunmamasını müəyyənləşdirməkdir. Bu məqsədlə Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Dədə Ömər Rövşəni, Şeyx İbrahim Gülşəni, Kişvəri, Şah İsmayıl Xətayi, Məhəmməd Füzuli və Molla Vəli Vidadi kimi şairlərin poetik irsi təhlil olunmuşdur. Nəticədə məlum olmuşdur ki, hürufiliklə birbaşa və ya dolayı şəkildə əlaqəli olan şairlər (Həqiqi, Gülşəni, Xətayi) Nəsimi təsiri ilə antropomorfizmi əks etdirən surəti-Rəhman, məzhəri-İlah, küntü kənz, vəchullah və s. terminlərdən istifadə etmişlər. Digər şairlərin yaradıcılığında isə bu tendensiyaya rast gəlinmir. Araşdırma göstərir ki, antropomorfizm hürufi düşüncənin təsiri ilə Azərbaycan sufi poeziyasına daxil olmuş və burada poetik sistemin mühüm bir elementi kimi formalaşmışdır.*

***Açar sözlər:*** *Nəsimi, antropomorfizm, surəti-Rəhman, məzhəri-İlah, hürufilik, təsəvvüf ədəbiyyatı, klassik poeziya.*

## Giriş

Antropomorfizm – ilahi və metafizik varlığın insan sifətləri ilə ifadə olunması – İslam mistik düşüncəsində, xüsusilə də hürufi-sufi poeziyada mühüm yer tutan semantik və poetik konsepsiyalardan biridir. Tədqiqata cəlb etdiyimiz *şab, şabü-əmrəd, şabi-qətət, huri-Lətif, əhsəni-surət, surəti-Rəhman, surəti-Həqq, surəti-Allah, surəti-Yəzdan, surəti-ziba, məzhər, məzhəri-Zatü sifat, Həq-təala məzhəri, İlahın məzhəri, Məzhəri-Allah, məzhəri-Həq, məzhəri-Xəllaq, məzhəri-Zati-qədim, məzhəri-Zatü Sifat, məzhəri-Yəzdan, təcəlli, qamət* və *qədd* leksik vahidləri Nəsimi yaradıcılığında antropomorfizmin əlamətlərini əks etdirən dini-fəlsəfi düşüncə tərzini ortaya qoyur. Bunlardan *şab, şabü-əmrəd, şabi-qətət, surəti-Rəhman* terminləri Məhəmməd peyğəmbərin şiə və sünni ilahiyyatçıları tərəfindən qeyri-səhih hesab edilən, əsasən, iki hədisindən iqtibas edilmişdir: *"Rəbbimi yaşıl bağçada qıvrım saçlı, bığ yeri təzəcə tərləmiş bir gənc şəklində gördüm"* (رَأَيْتُ رَبِّي فِي صُورَةِ شَابٍّ أَمْرَدَ، لَهُ وَفْرَةٌ جَعْدٌ قَطَطٌ، فِي رَوْضَةٍ خَضْرَاءَ) və "Allah Adəmi Rəhman surəti üzərinə yaratdı" (خلق الله آدم على صورة الرحمان). Mühəddislərin bir qrupu meracın röyada baş verməsi şərtilə bununla bağlın hədisləri səhih olduğunu qəbul edir, digər qrup birbaşa baş verdiyini müdafiə edərək qəbul edirlər, üçüncü qrup alimlərsə tamamilə inkar edirlər. Yuxu şərtilə səhih hesab edənlər çoxluq təşkil edir. Bu hədislər hürufiliyin ideoloji əsasını (Adəm Allahın məzhəridir) təşkil edir. Təsadüfi deyil ki, Fəzlullah Nəimi "Cavidannamə"nin ilk səhifələrindən göstərilən hədislərdən söhbət açaraq dəfələrlə bu mövzuya qayıdır və hətta Tövrətdən antropomorfizmi təsdiqləyən sitatlar gətirir. İslam fəlsəfəsində antropomorfizm təşbih və təscim terminlərində öz əksini tapır. Bu əqidə tərəfdarları müşəbbihə (Antropoteizm) və mücəssimə (Allahı cism sayan və ya Allahın sifətlərini cisimləşdirən məzhəb) cərəyanlarını yaratmışlar.

Antropomorfizmin ədəbiyyata nüfuz etməsi və estetik dəyər kəsb etməsi əsasən klassik Şərq poeziyasında, xüsusilə də hürufi təlimin təsiri ilə baş vermişdir. İmadəddin Nəsimi bu istiqamətdə Azərbaycan ədəbiyyatında yeni poetik üfüqlər açan, insanı "Haqqın məzhəri" kimi təqdim edən, antropomorf təfəkkürün poetik dilini formalaşdıran aparıcı simadır. Onun yaradıcılığı yalnız hürufiliyin fəlsəfi prinsiplərini deyil, həm də antropomorf dünyagörüşün sənətkarlıqla ifadəsini təcəssüm etdirir.

Bu məqalədə məqsəd Nəsimi yaradıcılığında formalaşmış antropomorf terminlərin Azərbaycan təsəvvüf ədəbiyyatının digər nümayəndələrinin poeziyasında işlənmə səviyyəsini araşdırmaqdır. Bu məqsədlə Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Dədə Ömər Rövşəni, Şeyx İbrahim Gülşəni, Kişvəri, Şah İsmayıl Xətayi, Məhəmməd Füzuli və Molla Vəli Vidadi kimi klassik şairlərin poetik irsi təhlil edilmişdir. Araşdırma nəticəsində bəlli olur ki, Nəsimi ilə eyni ideoloji-estetik təmələ söykənən bəzi şairlər onun poetikasında yer alan antropomorfizmi davam etdirmiş, digərləri isə bu istiqamətə müraciət etməmişlər. Bu kontekstdə məqalə həm də klassik Azərbaycan sufi poeziyasının ideoloji-məna təbəqələrinin öyrənilməsi baxımından elmi-nəzəri əhəmiyyət daşıyır.

**Klassik ədəbiyyatda antropomorfizm**

Nəsimi yaradıcılığında müşahidə etdiyimiz antropomorfizm mahiyyətli terminlərin orta əsr Azərbaycan təsəvvüf ədəbiyyatının digər nümayəndələrinin əsərlərində işlənib-işlənməməsi ilə bağlı kiçik bir araşdırma həyata keçirtdik. Tədqiqata Qazi Bürhanəddin (XIV əsr), Cahanşah Həqiqi (XV əsr), Dədə Ömər Rövşəni (XV əsr), Şeyx İbrahim Gülşəni (XV-XVI əsr), Kişvəri (XV əsr), Şah İsmayıl Xətayi (XVI əsr) və Məhəmməd Füzulinin (XVI əsr) əsərlərində *şab, şabü-əmrəd, şabi-qətət, huri-Lətif, surəti-Rəhman, surəti-Həqq, surəti-Allah, surəti-Yəzdan, surəti-ziba, məzhər, məzhəri-Zatü sifat, Həq-təala məzhəri, İlahın məzhəri, Məzhəri-Allah, məzhəri-Həq, məzhəri-Xəllaq, məzhəri-Zati-qədim, məzhəri-Zatü Sifat, məzhəri-Yəzdan, küntu kənzin məzhəri, təcəlli, qamət* və *qədd* leksik vahidləri axtarışa verildi.

1. Qazi Bürhanəddin (1344-1398) təsəvvüf ədəbiyyatının bariz nümayəndəsi olmasına baxmayaraq onun yaradıcılığında antropomorfizmin heç bir əlaməti tapılmadı. O, hürufiliyin yeni yarandığı dövrlərdə vəfat etdiyinə görə belə nəticəyə gəlmək olur ki, antropomorfizmi Azərbaycan təsəvvüf ədəbiyyatına məhz hürufilik gətirmişdir. Çünki sonrakı dövrlərdə yaşamış şairlərin yaradıcılığında hürufiliyin bu əsas konsepsiyasını aşkar şəkildə izləmək mümkündür.

2. Bunlardan biri XV əsrdə yaşayıb-yaratmış şair-hökmdar Cahanşah Həqiqidir (1405-1467). Şeirlərində hürufiliyin və əsasən, Nəsiminin böyük təsiri hiss olunan Həqiqi öz şeirlərində antropomorfik mahiyyətli *surəti-Rəhman, məzhəri-İlah* terminlərindən geniş istifadə edir:

*"Zahida, gəl səcdə qıl şol surəti-Rəhmanə sən,*
*Səcdeyi-Həqqi sana çün əhli-təqva görsədir"* [5, s. 37].
*"Təcəlla qıldı cəmalında Vahibi-surət,*
*Bu mə'nidən sana məzhəri-İlah dedim"* [5, s. 74].

Həqiqi şeirlərində *şabü-əmrəd, şabi-qətət* birləşmələrini işlətməsə də, Məhəmməd peyğəmbərin meracda Allahı görməsi ilə bağlı hədisinə işarə vurur və Tanrını *huri-Rizvan* adlandırır:

*"Vüsalın həsrəti-narı məni yaxdı fərağında,*
*Nə mahiyyətsən, ey can kim, cəmalın huri-Rizvandır"* [5, s. 28]

Əhsəni surət antropomorfizm terminini Həqiqi öz şeirlərində dəfələrlə işlətdiyini müşahidə etmək mümkündür:

*"Yüzün inna fətəhnadır təbarək şə'ninə münzəl,*
*Bu vəchi əhsəni-surət deyənlər əhli-ürfandır"* [5, s. 28]

2. Sufi şair Şeyx Dədə Ömər Rövşəni (-1487) 25 ildən artıq Təbrizdə yaşayıb-yaratmış və özünün ayrıca rövşəniyyə təriqətini yaratmışdır. O, XV-XVI əsrlərdə fəaliyyət göstərmiş "Xəlvətiyyə" sufi təriqətinin əsasını qoymuş Seyid Yəhya Şirvaninin tələbəsi olmuşdur. Tədqiqatımız nəticəsində Rövşəninin yaradıcılığında antropomorfizmin heç bir əlaməti tapılmadı.

4. Rövşəninin tələbəsi olmuş Şeyx İbrahim Gülşəni (1426-1534) də özünün ayrıca gülşəniyyə təriqətini yaratmışdır. Amma müəllimindən fərqli olaraq onun yaradıcılığında hürufiliyin təsiri aşkar hiss olunur. Gülşəninin şeirlərində *məzhər, vəchullah, surəti-Rəhman, sıfat, əhsəni-surət* kimi antropomorfik mənalar daşıyan terminlər görülür. Onun əsərlərində insan Allahın *məzhər*idir. O, insan surətini Allahın təcəllisi hesab etməyənləri div ilə şeytan adlandırır:

*"Ey camalun eşqə məzhər, surətün mir'ati-Zat,*
*Vəchün imiş hikmətullahi-qüdrət içün sifat"* [3, s. 47].
*"Görübən yüzüni Həqdən qaçub inkar edənə*
*Sögübən div ilə şeytan dedilər, gerçəkmiş"* [3, s. 153].

Şair göstərir ki, insanın üzündə Quran ayələri yazılmışdır. Nəsimi yaradıcılığında olduğu kimi, Şeyx İbrahim Gülşəni də gənc oğlanın üzündə yeni çıxan tükləri xətt adlandırır, Quran ayələri ilə assosiativ bənzətmə yaradaraq xəttatlıq növlərindən biri olan reyhaninin adını çəkir:

*"Bitəli gülşəni-hüsnündə bənəfşə kimi xət,*
*Xətünə vərd ilə reyhan dedilər, gerçəkmiş"* [3, s. 153].

Belə bir yorum Nəsimi yaradıcılığı üçün çox tanış bir mövzudur. Azadə Musayeva Gülşəninin Nəsimidən forma, məzmun, ideya baxımından bəhrələndiyini qeyd edərək əyani şəkildə beytlərin müqayisəsini verir. Bax: [3, s. 20]. Şeyx İbrahim Gülşəni yaradıcılığında *surəti-Rəhman* birləşməsi

çox işlənir. Belə məlum olur ki, şair Məhəmməd peyğəmbərin "Allah Adəmi Rəhman surəti üzərinə yaratdı" (خلق الله آدم على صورة الرحمان) hədisindən ilham almışdır:

*"Sorağam adəm isən surəti-Rəhmana gəz,*
*Ğeybə inkar edübən, şahidə inkar nədür?"* [3, s. 99].
*"Yenə ol surəti-Rəhman ki oldi nəfxədan insan,*
*Könüllər Misrinə sultan gəlür, derlər, gəlür derlər"* [3, s. 103].
*"Pərdə götür, ta görəlüm yüzünü,*
*Zahir olan surəti-Rəhmanumuz"* [3, s. 134].

5. XV əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Kişvərinin yaradıcılığında antropomorfizmi əks etdirən heç bir leksik vahid tapılmadı.

6. XV əsrdə yaşamış Azərbaycan şairi Həbibidə antropomorfizmi əks etdirən *vəchi-əhsən* (*əhsəni-surət*in sinonimidir, *vəch* ərəb dilində üz deməkdir), *surəti-Rəhman* kimi leksik vahidlər müşahidə olunur:

*"Yığmagil ğəm ləşgəriylə, billah, ey sultani-can,*
*Görəli can Kəbəsində çün o vəchi-əhsəni.*
*Bu Həbibi surəti-Rəhmanə edər səcdəsin,*
*Bu viran dil kim olubdur, gənci-eşqin məxzəni"* [4, s. 36]

7. XVI əsrdə yaşayıb-yaratmış Səfəvi dövlətinin qurucusu və təmiz Azərbaycan türkcəsində yazdığı şeirləri ilə tanınan Şah İsmayıl Xətayinin (1487-1524) yaradıcılığında antropomorfizm mahiyyətli *surəti-Rəhman, nuri-Rəhman, vəchullah, küntü kənz, məzhər, surəti-vəch* terminlərində müşahidə olunur. Şairin yaradıcılığında hürufiliyin və Nəsiminin təsiri aşkar hiss olunur. Şah İsmayıl Xətayi Allahın təcəlli etdiyi insan surətinə dünyanın valeh olduğunu bildirir:

*"Sana bu künfəkan valeh bolubdur,*
*Ki, hüsnin surəti-Rəhmandır, ey dust"* [6, s. 41].

Şair aşağıdakı beytdə Allah tərəfindən Adəmin şəninə söylənən sözlərə istinad verir. Burada *kərrəmna* (كرّمنا) ərəb dilində "biz şərəf və hörmət sahibi etdik" deməkdir. Bu ifadə Quranın İsra surəsinin 70-ci ayəsindən iqtibas edilmişdir: "Biz, Adəm övladını şərəfli və hörmətli etdik" (وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ). Aşağıdakı beyt Nəsiminin "gör" rədifli qəzəlinə yazılmış nəzirədir:

*"Adəmin şə'nində kərrəmna dedi nitqi-İlah,*
*Əhli-mə'nasan, həqiqət sümmə vəchüllahi gör"* [6, s. 56].

Burada *vəchullah* – "Allahın surəti", yəni Adəm anlamındadır. Şərhi: Mənadan anlayansansa, həqiqəti, sonra "Allahın surəti"ni gör! Xətayinin bu qəzəli bütünlüklə hürufiliyə həsr olunmuşdur. Burada hətta son beytdə Fəzlullahın adı çəkilir.

Xətayi *məzhər* terminini Allahın nurunun əks olunduğu insan surətinə şamil edir, qaşları Allahın evinin, yəni məscidin mehrabına, qəddini isə minbərə bənzədir:

*"Ey cəmalındır sənin Allah nurin məzhəri,*
*Uştə beytüllah qaşın mehrabi, qəddin minbəri"* [6, s. 198].

Şah İsmayıl Xətayi aşağıdakı beytdə bildirir ki, "küntü kənz" ayəti insanın gözəl keyfiyyətlərinə görə nazil olmuşdur. Pərvərdigar varlığına "ol" dedi və oldu:

*""Küntü kənz"in ayəti vəsfində olmuşdur nüzul,*
*Varlığına kün fəkan iqrar edən pərvərdigar"* [6, s. 211].

8. XVI əsrdə yaşamış böyük şair Məhəmməd Füzulinin yaradıcılığında antropomorfizmin heç bir əlaməti müşahidə olunmadı.

9. XVIII əsr Azətrbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Molla Vəli Vidadi *şabu-qətət* surətini təsdiqləyən *əhsəni-surət* antropomorfizm terminini müsəddəs şeirində işlədir: *"Bu əhsəni-surətdə ki insan ola fani"* [8, s. 72]

**Nəticə**

Aparılan tədqiqat orta əsr Azərbaycan təsəvvüf poeziyasında antropomorfizm motivlərinin yayılma arealını və semantik çalarlarını aydınlatmaq məqsədi daşıyır. İmadəddin Nəsimi yaradıcılığında geniş yer alan və insanı ilahi təcəllanın daşıyıcısı kimi təqdim edən antropomorfizm leksikasının digər klassik Azərbaycan sufi şairlərinin poeziyasında da izləri araşdırılmışdır. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, XIV əsrdə yaşamış Qazi Bürhanəddin və XV əsrin şairləri olan

Dədə Ömər Rövşəni, Kişvəri, eləcə də XVI əsrin böyük klassiki Məhəmməd Füzuli bu konseptə yer verməmişlər. Bununla belə, hürufiliyin təsiri altında olan və Nəsimidən bəhrələnmiş Cahanşah Həqiqi, Şeyx İbrahim Gülşəni və Şah İsmayıl Xətayi kimi sufi şairlərin yaradıcılığında *surəti-Rəhman, məzhəri-İlah, vəchullah, küntü-kənz* kimi antropomorf leksik vahidlərə rast gəlinmişdir. Həmçinin, bu terminlər Məhəmməd peyğəmbərlə əlaqələndirilən bəzi qeyri-səhih hesab edilən hədislərə əsaslanaraq hürufi təlimin ideoloji bünövrəsini təşkil etmişdir. Beləliklə, araşdırmalar göstərir ki, antropomorfizm Azərbaycan təsəvvüf ədəbiyyatında yalnız hürufi təsir dairəsində inkişaf etmişdir və bu xüsusiyyət Nəsimi poetikasının mühüm bir qatını təşkil etməklə yanaşı, sonrakı bəzi şairlərə də təsir göstərmişdir.

## ƏDƏBİYYAT


1. Dədə Ömər Rövşəni əlyazmaları üzərində araşdırmalar. (2 cilddə). I cild. (elmi-tənqidi mətn). Tərtibçi: Azadə Mustayeva. Bakı, Nurlan 2003. – 477 səh.
2. Füzuli M. Əsərləri. Altı cilddə. Bakı: Şərq-Qərb, 2005,.
3. Gülşəni, Şeyx İbrahim. Bərdəi. Divan. Bakı, “Avrasiya press”, 2006, 416 səh,
4. Həbibi. Şeirlər. Bakı, "Şərq-Qərb", 2006, 88 səh.
5. Həqiqi, Cahanşah. Şeirlər, Bakı: “Şərq-Qərb”, 2006, 152 səh.
6. Xətayi, Şah İsmayıl. Əsərləri. Bakı: “Şərq-Qərb”, 2005, 384 səh.
7. Qazi Bürhanəddin. Divan. Bakı: “Öndər nəşriyyat’’, 2005, 728 səh.
8. Molla Vəli Vidadi. Əsərləri. Bakı, “Öndər nəşriyyat”, 2004, 128 səh.



***AMEA Nəsimi adına Dilçilik İnstitutu,***
***Azərbaycan dili tarixi şöbəsinin müdiri***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: heyderova73@mail.ru***

**Khadija Heydarova**


## ANTHROPOMORPHİSM AND HURUFİ THOUGHT: AN ANALYSİS OF MEDİEVAL AZERBAİJANİ SUFİ POETRY


This article explores the presence and usage of anthropomorphic concepts in the medieval Azerbaijani Sufi poetry tradition. The main focus is to determine whether the anthropomorphic terms found in the poetry of Imadaddin Nasimi appear in the works of other classical Sufi poets. The study analyzes the poetic heritage of prominent figures such as Qazi Burhanaddin, Jahanshah Haqiqi, Dada Omar Rovshani, Sheikh Ibrahim Gulshani, Kishvari, Shah Ismail Khatai, Muhammad Fuzuli, and Molla Vali Vidadi. The results reveal that poets directly or indirectly influenced by Hurufism (such as Haqiqi, Gulshani, and Khatai) employed terms like surat-i-Rahman, mazhar-i-Ilah, kuntu kanz, and wajhullah, reflecting anthropomorphic tendencies similar to Nasimi. In contrast, other poets' works show no such tendencies. The study concludes that anthropomorphism entered Azerbaijani Sufi literature primarily through the influence of Hurufi thought, becoming an essential component of its symbolic poetic language.



**Keywords:** *Nasimi, anthropomorphism, surat-i-Rahman, mazhar-i-Ilah, Hurufism, Sufi poetry, classical literature.*



**Хадиджа Гейдарова**

## АНТРОПОМОРФИЗМ И ХУРУФИТСКОЕ МЫШЛЕНИЕ: АНАЛИЗ СРЕДНЕВЕКОВОЙ АЗЕРБАЙДЖАНСКОЙ СУФИЙСКОЙ ПОЭЗИИ

В данной статье исследуется уровень распространения и функционирования концепта антропоморфизма в поэзии средневековой азербайджанской суфийской литературы. Основной целью исследования является выяснение, встречаются ли антропоморфные лексические единицы, характерные для творчества Имадеддина Насими, в произведениях других классических суфийских поэтов. В рамках исследования был проанализирован поэтический корпус таких авторов, как Казы Бурханаддин, Джаханшах Хагиги, Деде Омер Ревшени, Шейх Ибрагим Гюльшени, Кишвери, Шах Исмаил Хатаи, Мухаммед Физули и Молла Вели Видади. Установлено, что поэты, прямо или косвенно связанные с хуруфизмом (Хагиги, Гюльшени, Хатаи), под влиянием Насими использовали термины, отражающие антропоморфизм, такие как *сурати-Рахман*, *мазхари-Илах*, *кунту канз*, *вачхуллах* и др. В произведениях других авторов подобных элементов не обнаружено. Исследование показывает, что антропоморфизм вошёл в азербайджанскую суфийскую поэзию под влиянием хуруфистского мировоззрения и стал важным элементом поэтической системы.

**Ключевые слова:** *Насими, антропоморфизм, сурати-Рахман, мазхари-Илах, хуруфизм, суфийская литература, классическая поэзия.*

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 09.04.2025**
**Son daxilolma tarixi:13.05.2025**